# LÜTFİ ZADƏNİN HƏYAT VƏ FƏALİYYƏTİNİN ƏSAS TARİXLƏRİ

***ABŞ-ın Kaliforniya Universitetinin fəxri professoru, qeyri-səlis məntiq nəzəriyyəsinin banisi, Azərbaycan Milli Elmlər Akademiyasının fəxri üzvü, dünya şöhrətli alim Lütfi Zadə (Lütfəli Rəhim oğlu Ələsgərzadə) 1921-ci ilin 4 fevral tarixində Bakının Novxanı kəndində, Rəhim Ələsgərzadə və yəhudi əsilli rus uşaq həkimi olan Feyqa (Fanya) Moiseyevna Koremanın ailəsində dünyaya gəlib.***

| | |
|---|---|
| **1927** | Bakıdakı 16 saylı məktəbdə 4 il oxumuşdur. |
| **1931** | 10 yaşı olanda Sovet İttifaqında vəziyyətin ağır olduğunu nəzərə alaraq ailəsi İrana getməyə qərar vermişdir |
| **1932** | Ailəsi ilə birgə İrana köçmüşdür. Tehranda fəaliyyət göstərən "Albroz" adlı presviteran missioner kollecinə daxil olmuşdur. |
| **1942** | Tehran Universitetinin mühəndis-elektrik fakültəsini bitirmiş, bakalavr dərəcəsi almış və bir müddət atasının yanında işləməli olmuşdur. |
| **1944** | Təhsilini davam etdirmək üçün Amerika Birləşmiş Ştatlarına getmiş, Massaçusets Texnologiya İnstitutuna qəbul olunmuşdur. |
| **1946** | Bostonda Massaçusets Texnologiya İnstitutunu bitirmiş, mühəndis-elektrik ixtisası üzrə magistr diplomunu aldıqdan sonra Kolumbiya Universitetinin doktoranturasına daxil olmuşdur. |
| **1947** | Alimin valideynləri ona yaxın ola bilmək üçün Amerikanın Filadelfiya Ştatına gəlmişdir. |
| **1949** | Lütfi ona doktorluq dərəcəsi almağa ilham verən müəllimi, professor Ernst Adolf Gilyemin ilə birgə elmi tədqiqat işi aparmış və dissertasiya müdafiə etdikdən sonra mühəndislik bölməsində assistent olaraq çalışmağa başlamışdır. |
| **1949** | Kolumbiya Universitetində o, elektromaqnit sahə nəzəriyyəsi, dövrə analizi, sistem nəzəriyyəsi, məlumat və ardıcıl maşınlar nəzəriyyəsindən mühazirələr oxumuş, doktorluq dissertasiyasını müdafiə etmiş, fəlsəfə doktoru dərəcəsinə layiq görülmüşdür.<br><br>İlk işi "Tətbiqi fizika" jurnalında dərc olunmuş "Ehtimal kriteriyaları" adlı məqaləsi olmuşdur; |

| | |
|---|---|
| | "Zamana görə dəyişən şəbəkələrin tezlik sahəsinin inkişafı" adlı əsərini yazmışdır |
| **1950** | Dosent elmi adına layiq görülmüşdür;<br><br>Ç.R.Raqazzini ilə birlikdə "Vinerin proqnozlaşdırma nəzəriyyəsinin inkişaf etdirilməsi" adlı məqaləsini yazmışdır;<br><br>Alimin "Düşünən maşınlar"- elektrik mühəndisliyinin yeni bir sahəsi və Ç.R.Raqazzini ilə birgə Vinerin ekstrapolyasiya nəzəriyyəsinin ümumiləşdirilməsinə dair yazılan məqalələri dərc olunmuşdur. |
| **1952** | Ç.R.Raqazzini ilə birlikdə "Z-çevirmə üsulunun yaradılması" elmi işini yazmışdır. |
| **1953** | "Qeyri-xətti süzgəclər nəzəriyyəsinin yaradılması"nı yazmışdır. |
| **1954** | "Sistem nəzəriyyəsini" yaratmışdır. |
| **1956** | "Sistemlərin identifikasiya problemlərinin formalaşdırılması" əsərini yazmışdır;<br><br>NSF[National Science Foundation]-in baş elmi işçisi seçilmişdir. |
| **1957** | Professor elmi adına layiq görülmüşdür; |
| | Koliforniya Elmi Mərkəzinin sədri olan Norbert Viner L.Zadəni Kaliforniyadakı Berkli Universitetinə işləməyə dəvət etmişdir;<br><br>Koloradoda keçirilən URSİ-nin birinci konqresində iştirak etmişdir. |
| **1958** | Elektrik və Elektron Mühəndisləri İnstitutunun [İEEE] əməkdaşı seçilmişdir;<br><br>Həyat yoldaşı ilə birlikdə Avropaya səyahət etmiş, London, Belçika, Hollandiya, Amsterdam və Parisi ziyarət etmişdir. |
| **1959** | L.Zadə ailəsi ilə birlikdə Berkli şəhərinə köçmüş və burada ömrünün sonuna kimi Koliforniyanın Berkli Universitetində professor vəzifəsində çalışmışdır. |
| | Həyat yoldaşı ilə birlikdə Avropaya səyahət etmişdir: Almaniyanın Frankfurt və Münhen, İtaliyanın Trento və Milan, İsveçrənin Sürix və |

| | |
|---|---|
| | Qrindevald şəhərlərini, İsveçrə Alplarını, Fransanın Paris, İngiltərənin London şəhərini, Avstriyanı gəzmişdir; |
| **1960** | Londonda keçirilən URSİ-nin ikinci konqresində iştirak etmişdir;<br>60-cı illərin ortalarında alim sistem nəzəriyyəsi, avtomatik idarəetmə nəzəriyyəsi və bunların tətbiqi sahəsində ən məşhur mütəxəssislərdən biri kimi tanınmışdır;<br>Alim həyat yoldaşı Faina və anası Feyqa ilə San-Fransisko şəhərində istirahət etmişdir. |
| **1962** | İyun ayında alimi Fransada mühazirə oxumağa dəvət etmişlər;<br>Həyat yoldaşı ilə birgə Avropaya səyahət etmişdir. |
| **1963** | Xanımı Fey ilə birgə 43 günlük dünya səyahəti etmişdir: Yaponiya, Tokio, Fransa, Çexoslovakiya, Rusiya, Daşkənd, Hindistan, Dehli, Tailand, Honkonqu gəzmişdir;<br>Berkli Universitetində "Kompüter elmləri və elektrik mühəndisliyi" kafedrasına rəhbərlik etmişdir;<br>Ç.A.Dezoer ilə birlikdə "Xətti sistemlərin təhlili üçün vəziyyətlər fəzası" əsərini yazmışdır;<br>Ç.A.Dezoerlə birgə "Xətti sistemlər nəzəriyyəsi" kitabını nəşr etdirmişdir;<br>Həyat yoldaşı ilə birlikdə Tokioda "Şinqano Qardenz"də keçirilən Beynəlxalq URSİ-nin konqresinin açılışında iştirak etmişdir;<br>Osako, Senday, Tokio universitetlərində mühazirələr oxumuşdur. |
| **1964** | "Qeyri-səlis çoxluqlar" nəzəriyyəsini yaratmışdır.<br>"Information and Control" jurnalında həyatının ən mühüm "Qeyri-səlis çoxluqlar" elmi işini çap etdirmişdir. Amma bu nəzəriyyə nədənsə həm Amerika, həm də dünyanın elmi ictimaiyyəti tərəfindən skeptikcəsinə qarşılanmışdır.<br>Bunun da əsas səbəbi Lütfi Zadənin əsrlərdən bəri insan ların beynində formalaşmış Aristotel |

| | |
|---|---|
| | məntiqini öz qeyri-səlis məntiqi ilə dağıtması olmuşdur. |
| **1965** | Lütfi Zadə sübut etmişdir ki, insan dünyanı yalnız "ağ" və "qara" rənglərdə duyub qavramır. İnsanın dünyanı görüb dərk etmə imkanları zəngin və hüdudsuzdur. Elə buna görə də o, hüdudsuzluğun riyaziyyatını yaratmış, onun rəngarəngliyini açmışdır. Beləliklə, Əl-Xarəzm cəbri ilə yanaşı, qeyri-səlis cəbr - Zadə cəbri meydana gəlmişdir;<br><br>Lütfi Zadə A.S.Popov adına Rusiya Radio-texnika Elektronika və Rabitə Elmi-Texniki Cəmiyyətinin rəsmi dəvəti ilə iki dəfə Sovet İttifaqına səfər etmişdir. Səfər çərçivəsində alim həyat yoldaşı ilə birlikdə beş gün Moskvada olub, burada “Ölü canlar” tamaşasına və “Don Kixot” baletinə baxmış, “Bakı” restoranında nahar edib, şərq musiqisini dinləmişlər;<br><br>Sentyabr ayında alim “Admiral Naximov” gəmisində keçirilən konfransda iştirak etmək üçün ikinci dəfə SSRİ-yə gəlmiş və burada özünün – “Radioelektronikada tendensiyalar” əsərini təqdim etmişdir;<br><br>Beynəlxalq elmi konfransdan sonra Gürcüstanın paytaxtı Tbilisi şəhərində olmuş, oradan isə birinci dəfə Bakıya səfər etmişdir. Doğma vətənində keçirdiyi bir gün ərzində o, uşaqlığı keçən evlərinə baş çəkmiş, Bakının görkəmli yerlərində olmuş, Azərbaycan Elmlər Akademiyasında qəbulda olmuş, Neft və Kimya İnstitutunun alimləri ilə görüşüb söhbət etmiş, “Neft Daşları” filminə, Azərbaycanın inkişafı, mədəni nailiyyətləti və Bakı haqqında qısa-metrajlı filmlərə baxmışdır. |
| **1966** | Bu ildən etibarən dünyanın bir çox ölkələrində: İngiltərədə, Almaniyada, Yaponiyada və başqa dövlətlərdə Lütfi Zadənin yaratdığı elmi mək-təblər, laboratoriyalar fəaliyyət göstərmişdir. Yaponiyanın “Mitsubishi”, “Toshiba”, “Sony”, “Canon”, “Sanyo”, “Nissan”,“Honda”, “NEC”, “Sharp”, “PICO”, “Orison” və b. firmaları aliminnəzəriyyəsinin kommersiya tətbiqi ilə məşğul olmuşdur.<br><br>Avqust ayında xanımı ilə birlikdə Dubrovnikdə səfərdə olmuşdur; |

| | |
|---|---|
| | Moskvada keçirilən Beynəlxalq Riyaziyyatçılar Konqresinə dəvət almışdır;<br><br>5 Sentyabrda Münhendə URSİ-nin [Beynəlxalq Radio Elmləri Birliyinin] rezidensiyasının Herkules zalında plenar sessiyanın açılışında iştirak etmişdir;<br><br>İspaniyaya səyahət etmişdir. |
| **1968** | “Qeyri-səlis hadisələrin ehtimal meyarları” əsərini ərsəyə gətirmiş, burada qeyri-səlis hadisə anlayışını tətbiq etmiş, onu “bu gün hava istidir”, “X kəmiyyətin qiyməti təqribən 5-ə bərabərdir” və s. kimi misallarla izah etmişdir;<br><br>Yay aylarında alim xanımı ilə Edinburqda İFİP-in (İnformasiyanın işlənməsi üzrə Beynəlxalq Federasiya) konfransında, İEEE-nin (Elektrik və Elektron Mühəndisliyi İnstitutunun) Delortda seminarında, Teknionedə yay seminarında, Dubrovnikdə İFAC-in (Beynəlxalq Avtomat Nəzarət Federasiyasının) konfransında, Pizedə NATO-nun sponsorluğu ilə keçirilən tanışlıq məşğələlərində, SİAM-ın (Sənaye və Tətbiqi Riyaziyyat Cəmiyyətinin) San-Remoda təşkil edilmiş konfranslarında iştirak etmişdir;<br><br>İsrailə gözlənilmədən və əvvəlcədən planlaşdırılmayan, qısamüddətli səfəri olmuşdur. |
| **1968-1977** | Berklidəki işi ilə paralel olaraq uzun illər San Xosedəki İBM Tədqiqat Laboratoriyasında professor kimi çalışmışdır. |
| **1969** | Avqust ayında Ottavada URSİ-nin konqresinin təntənəli açılışında iştirak etmişdir;<br><br>NATO-nun Fransada yay məktəbi ilə tanış olmuşdur;<br><br>19 sentyabrda Rio-de-Janeyro və San Pauloya səyahət etmişdir. |
| | Moskvanın “Наука” nəşriyyatında akademik V.S.Pospelovun redaktorluğu ilə L.Zadənin “Теория линейных систем” kitabı çapdan çıxmışdır (ingilis dilindən tərc.edənlər: V. N.Varıqin, A. S. Konstansov, A. A. Poduzov, M. D. Potapova, R. S. Rutman); |

| | |
|---|---|
| **1970** | R.Belmanla birgə “Qeyri-səlis mühitdə qərarlar qəbul edilməsi” adlı əsərini yazmışdır. Əsərdə “məqsəd və məhdudiyyətlər qeyri-səlis təbiətə malik olduğu halda qərar edilməsi” prosesini nəzərdən keçirmiş, sonra isə qərarlar qəbul edilməsi ilə bağlı çoxsaylı addımlardan ibarət proseslər nümunəsində bu yeni yanaşmanı şərh etmişdir. |
| **1971** | Mart ayında bir həftəliyə İranda keçirilən riyaziyyat və kompüterləşməyə həsr olunmuş Beynəlxalq elmi konfransa dəvət almışdır. Dəvəti Universitetin kafedra müdiri Ariya MehrMori Ənvəri göndərmişdi. Konfransdan sonra onu İranın o vaxtkı şahı Məhəmməd Rza Pəhləvi istirahət etdiyi Kiş adasındakı iqamətgahına dəvət etmişdir. |
| **1972** | 15-20 avqustda “Urbanizasiya probleminə sistemli yanaşma” mövzusunda Yuqoslaviyada keçirilən seminarda iştirak etmişdir;<br><br>20-29 avqustda Polşada (Varşava) Beynəlxalq Radio-Texniki İttifaqın Baş Assambleyasının keçirdiyi tədbirdə iştirak etmişdir;<br><br>29 avqust - 3 sentyabrda İngiltərədə (Oksford) Ümumi Sistemlər və Kibernetika üzrə Ümumdünya təşkilatına həsr olunmuş iclasda iştirak etmişdir;<br><br>3-9 sentyabrda İngiltərədə (Bornmut) NATO-nun iclasında çıxış etmişdir;<br><br>10-15 sentyabrda “İnsan və kompüter” mövzusunda Fransada (Bordo) keçirilən konfransda çıxış etmişdir;<br><br>18-20 sentyabrda professor Karl Astremlə İsveçin Lund şəhərində yerləşən Texnologiya İnstitutuna baş çəkmişdir. |
| **1973** | “Mürəkkəb sistemlərin və qərarlar qəbul edilməsi proseslərinin təhlilinə yeni yanaşmanın əsasları”, “Linqvistik dəyişən və qeyri-səlis “əgər-onda” qaydalarının konsepsiyası” əsərlərini yazmışdır;<br><br>Təhsil sahəsindəki xidmətlərinə görə “İEEE Educational medalı” ilə təltif olunmuşdur; |

| | |
|---|---|
| | Milli Mühəndislik Akademiyasının üzvü seçilmişdir (NAE). |
| **1974** | 13 iyulda avropaya daha bir səyahət etmiş, Urbino institutunda "radioelektronikada təmayüllər" mövzusunda iki mühazirə oxumuşdur;<br><br>Bern, Bazel, Hamburq və Kopenhagenə səyahət etmişdir ;<br><br>Stokholmda "siti holl"da rəsmi qəbul, yay məktəbində görüş keçirmişdir; |
| **1975** | Alimin nəzəriyyəsinə əsaslanaraq E.Mamdani və S. Assilian qeyri-səlis tətbiqi sistemin ilk laboratoriya versiyası olan qeyri-səlis tənzimləyici yaratmış və onu sənayedə tətbiq etmişdir;<br><br>İkinci dəfə Macarıstana səyahət etmiş, konfransda iştirak etmiş, Sovetlər İttifaqından olan məşhur Dr.Pospelov ilə konfransda görüşü baş tutmuşdur. |
| **1975-1976** | "Linqvistik dəyişən anlayışı və onun təxmini qərarlar qəbul edilməsinə tətbiqi" silsiləsinə aid məşhur məqalələr yazmışdır. |
| **1976** | Moskvanın "Mir" nəşriyyatında alimin «Понятие лингвистической переменной и его применение к принятию приближенных решений» kitabı çapdan çıxmışdır (red: N.N.Moiseyev, S.A.Orlovski; ingilis dilindən tərc. edəni: N.İ. Rinqo);<br><br>"Mürəkkəb və ya qeyri-dəqiq anlayışların tərəfinə qeyri-səlis alqoritmik yanaşma" əsərini yazmışdır;<br><br>Amerika Elmi İnkişaf Assosiasiyasının üzvü seçilmişdir;<br><br>"Eringen" medalına layiq görülmüşdür. |
| **1977** | 4 iyulda Kaşanda (Parisin ətrafında) ENSET-in informatika nəzəriyyəsi üzrə keçirilən sessiyasında iştirak etmişdir;<br><br>Barselonada Birinci Ümumdünya Riyaziyyat konfransında iştirak etmişdir;<br><br>Yaponiyanın Ticarət və Sənaye Nazirliyi 50-dən çox iri özəl şirkətlə birlikdə 40 milyon dollar |

| | |
|---|---|
| | büdcəsi ilə qeyri-səlis mühəndislik üzrə beynəlxalq bir laboratoriya (LIFE-Laboratory International Fuzzy Engineering) yaratmış və baş məsləhətçisi Lütfi Zadəni təyin etmişdir. Qeyrisəlis məntiq fikirlərindən çox sayda məişət və elektron cihaz istehsalında istifadə edilmiş və şirkətlərin gəlirləri milyardlarla dollarla ölçülmüşdür. Bu işlərinə görə Yaponiyanın "Honda" şirkəti Lütfi Zadəyə mükafat təqdim etmişdir;<br><br>Repinoda (Leninqrad yaxınlığında) Süni İntelləktə həsr olunmuş beynəlxalq konfransda çıxış etmişdir. |
| **1978** | “Qeyri-səlis çoxluqlar mümkünlük nəzəriyyəsinin əsası kimi” əsərini yazmışdır. |
| **1979** | “Təxmini mühakimə nəzəriyyəsi”ni yazmışdır. |
| **1980** | Lion və Tuluzada keçirilən konfranslarda iştirak etmişdir;<br><br>Yapon alimləri L.Zadənin kəşfindən istifadə etməyə başlamışdır. Bu nəzəriyyənin tətbiqi Yaponiyaya milyardlarla dollar qazandırmışdır. Bu gün Mitsubishi, Toshiba, Sony, Canon, Sanyo, Nissan, Honda kimi tanınmış yapon şirkətləri foto və video kameralar, paltaryuyan maşınlar, tozsoranlar istehsalında, avtomobillərin idarə olunmasında alimin elmi nəzəriyyəsindən geniş istifadə etmişdir. |
| **1982** | Lütfi Zadə və xanımı Fey Avstriyaya səyahət etmişdir. |
| **1983** | “Ekspert sistemlərində qeyri-müəyyənliyin idarə edilməsində qeyri-səlis məntiqin rolu” elmi işini yazmışdır. |
| **1984** | “İEEE Centennial medalı” ilə təltif edilmişdir. |
| | |
| **1985** | “Sağlam düşüncəyə əsaslanan mühakimə nəzəriyyəsi”ni yazmışdır. Berklidəki daimi işindən əlavə Stenford Universitetində qonaq professor olaraq çalışmışdır. |
| **1987** | Berklidəki daimi işindən əlavə Stenford Universitetində qonaq professor olaraq çalışmışdır. |
| **1988** | “Dispozisiya məntiqi”ni yazmışdır; |

| | |
|---|---|
| | Avropaya səfər etmiş, qeyri-səlis məntiq haqqında Beynəlxalq Konqreslər Mərkəzində çıxış etmişdir;<br><br>Avropaya daha bir səyahət etmiş, Berlində Tirqartendən Reyxstaqa qədər getmiş, məşhur Misir Muzeyini ziyarət etmiş və Beynəlxalq Konqres Mərkəzində qeyri-səlis məntiq mövzusunda mühazirə oxumuşdur;<br><br>İtaliyaya, İsveçrəyə səyahət etmişdir. |
| | Avropaya daha bir səyahət etmiş, Berlində Tirqartendən Reyxstaqa qədər getmiş, məşhurn Misir muzeyini ziyarət etmiş və beynəlxalq Konqres mərkəzində qeyri-səlis məntiq mövzusunda mühazirə oxumuşdur;<br><br>İtaliyaya, İsveçrəyə səyahət etmişdir. |
| **1989** | Qeyri-səlis məntiq haqqında Yaponiyada çıxış etmişdir.<br><br>17 noyabrda Yaponiyanın paytaxtı Tokioda, sənayedəki qeyri-səlis məntiq nəzəriyyəsinin uğurlarına görə yapon alimlərinə verilən ən yüksək “Honda” mükafatına layiq görülmüşdür (bu mükafatı alan ilk və yeganə azərbaycanlı alimdir). Bu mükafat Hondanın yaradıcısı, 83 yaşlı Mr. Hondanın anadan olduğu gün təntənəli şəkildə alimə təqdim olunmuşdur. |
| **1990** | Alimin qeyri-səlis neyron şəbəkə modeli istehsalata yol açaraq öz bəhrəsini verməya başlamışdır. Bu qeyri-səlis neyron şəbəkələr-modeli,maşınlarda uğurla istifadə edilmişdir. İyulda Kanadanın Vankuver şəhərində professor M.Cəmşidinin sədrliyi ilə keçirilmiş “Robotlar və istehsalat” adlı Beynəlxalq simpoziumda çıxış etmişdir.<br><br>İEEE-nin ömürlük üzvü seçilmişdir. |
| **1990-2000** | 10 il ərzində onun əsərlərinə 36 mindən çox istinad edilmişdir. |
| **1991** | Matsushita şirkəti qeyri-səlis neyron şəbəkələr modelini ilk dəfə paltaryuyan maşında istifadə etmişdir; |

| | |
|---|---|
| | Fevral ayında, Moskvada professorun 70 illik yubileyi münasibətilə qeyri-səlis məntiqə həsr olunmuş dəyirmi masa təşkil edilmişdir;<br><br>Berkli redaksiyasının mükafatı ilə təltif olunmuşdur;<br><br>“Qeyri-səlis qaydalar, qeyri-səlis qraf və qeyri-səlis ehtimal hesabı, soft computing nəzəriyyəsi”ni yazmışdır;<br><br>Süni İntellektin İnkişafına Yardım Birliyinin (AAAİ) üzvü seçilmişdir; |
| **1992** | “Kompüter elmləri və informasiya sistemləri sahəsində” verdiyi töhfələrə görə “Riçard Uxemminq” medalı və “Kampe de Feriet” mükafatına layiq görülmüşdür;<br><br>Beynəlxalq Robot və İstehsalat Simpoziumu (İSAAM) çərçivəsində alim “Qeyri-səlis Məntiqin Atası” adına layiq görülmüşdür. |
| **1993** | Yeni Orleanda, AMSE-də “Rufus Oldenburqer” medalı ilə təltif edilmişdir;<br><br>Rumıniya Elmlər Akademiyasının təqdim etdiyi “Grigore Moisila” mükafatına layiq görülmüşdür;<br><br>14 noyabrda Santa-Barbara, San-Fransisko, Vaşinqtonda olmuşdur;<br><br>15 noyabrda Honkonqun Çin Universitetində mühazirələr oxumuşdur;<br><br>30 noyabrda Yeni Orleanda “Mulatti” restoranında xüsusi ziyafətdə alimə “Rufus Oldenburqer” medalı və “Qriqore Moysil” mükafatı təqdim edilmişdir;<br><br>8 dekabrda alim üç günlük Sinqapura uçmuşdur;<br><br>Con Yen tərəfindən təşkil olunmuş, müxtəlif ölkələrdən tanınmış alimlərin iştirak etdiyi İFİSin sessiyasında iştirak etmişdir.<br><br>8 dekabrda alim üç günlük Sinqapura uçmuşdur; |

| | |
|---|---|
| | Con Yen tərəfindən təşkil olunmuş, müxtəlif ölkələrdən tanınmış alimlərin iştirak etdiyi İFİSin sessiyasında iştirak etmişdir. |
| **1994** | Sentyabrda Almaniyanın Aaxen şəhərində keçirilən beynəlxalq konfransda çıxış etmişdir;<br><br>Hesablama Maşınları Birliyinin (ASM) üzvü seçilmişdir. |
| **1995** | IEEE Fəxri medalı ilə təltif edilmişdir. |
| **1996** | "Qeyri-səlis məntiq - sözlərlə hesablamalar" əsərini yazmışdır;<br><br>13 noyabrda Tokioda "Okava" mükafatına layiq görülmüşdür;<br><br>29 noyabrda M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universitetinin elmi şurasının qərarı ilə kibernetika sahəsində görkəmli mütəxəssis Lütfi Zadəyə Universitetin fəxri doktoru adı verilmişdir. |
| **1998** | "Təəssürat nəzəriyyəsi"ni yazmışdır;<br><br>İdarəetmə sahəsi üzrə Riçard Bellman adına Amerika mükafatına layiq görülmüşdür;<br><br>Həyat yoldaşı Fey Zadə alimin həyatına həsr olunmuş "Qeyr-səlis məntiqin atası ilə mənim həyatım və səyahətlərim" (My life and Travels with the Father of Fuzzy Logic) adlı kitab nəşr etdirmişdir;<br><br>Edvard Figenbaum medalı ilə təltif olunmuşdur;<br><br>Alimin həyat və fəaliyyətinə həsr olunmuş Azərbaycan Dövlət Televiziyasının hazırladığı "Uzaq və yaxın Lütfi Zadə" adlı 4 seriyalı bioqrafik sənədli film çəkilmişdir;<br><br>5 oktyabrda Almaniya Federativ Respublikasının Visbaden şəhərində qeyri-səlis məntiq nəzəriyyəsinə həsr olunmuş Beynəlxalq Elmi konfransda alimin iştirakı ilə "Uzaq və yaxın Lütfi Zadə" tammetrajlı sənədli filminin ilk təqdimat mərasimi keçirilmişdir. |

| | |
|---|---|
| **1998-2000** | Qeyri-səlis sistem nəzəriyyəsinə görə İEEE mükafatına layiq görülmüşdür;<br><br>“MDB-də qeyri-səlis sistemlərin pioneri” mükafatına layiq görülmüşdür;<br>Möhbəddin Səmədin Lütfi Zadəyə həsr olunmuş “Dünya dahilərsiz yaşaya bilmir” kitabı Azərbaycan Ensiklopediyası nəşriyyatında çap edilmişdir;<br><br>Almaniyanın Zigen şəhərindəki məşhur Universitetdə Möhbəddin Səmədin “Dünya dahilərsiz yaşaya bilmir” kitabının təqdimat mərasimi keçirilmişdir;<br><br>“Lütfi Zadə adına süni intellekt Assosiasiyası” yaradılmışdır (Assosiasiyanın prezidenti prof. Rafiq Əliyevdir). |
| **2001** | “Rəqəmli hesablamalardan sözlərlə hesablamalara - ölçülərlə manipulyasiyadan hissi obrazlarla manipulyasiyalara” əsərini yazmışdır.<br><br>Qeyri-səlis məntiqin süni intellektin inkişafında verdiyi töhfələrə görə Allen Nyuel adına ACM mükafatına layiq görülmüşdür;<br><br>6-8 iyunda professorun 80 illik yubileyi münasibətilə türkiyənin antalya şəhərində beynəlxalq elmi konfrans keçirilmişdir. |
| **2003** | 16 mayda Azərbaycan MEA-nın fəxri üzvü seçilmişdir. İn Tech jurnalının ən yaxşı liderləri siyahısına daxil edilmişdir. |
| **2004** | V.Kaufman mükafatı və qızıl medalı ilə təltif olunmuşdur. |
| **2005** | Nikolay Kopernik medalı ilə təltif olunmuşdur. |
| **2006** | Görkəmli alim Silikon Vadisi Mühəndislik Şöhrət Zalına və Almaniyada Nixdorf kompüterlər muzeyi siyahısına daxil edilmişdir;<br><br>“Qeyri-səlis Sistemlər və Yumşaq Hesablama”jurnalı təsis edilmiş və Lütfi Zadə onun fəxri redaktoru seçilmişdir;<br><br>24 fevralda Lütfi Zadə adına Beynəlxalq Müasir Elmlər Akademiyasının növbəti iclası keçirilmişdir. |
| **2007** | Egleston medalı ilə təltif olunmuşdur. |

| | |
|---|---|
| **2008** | 8-10 noyabrda Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin dəvəti ilə Bakıya ikinci səfəri zamanı professor "BakuTel" beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgi və konfransında iştirak etmişdir. Səfər zamanı Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edən alim Prezident İlham Əliyev tərəfindən də qəbul edilmişdir. Görüşdə Lütfi Zadə Bakıya səfərindən və ölkə başçısı ilə görüşündən məmnunluğunu ifadə etmişdir;<br><br>"Baku Tel" Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgisi və konfransında iştirak etmişdir;<br><br>10 noyabrda AMEA Rəyasət Heyətində dünya şöhrətli alim ilə görüş keçirilmiş, ona AMEA-nın xarici üzvü diplomu təqdim edilmişdir;<br><br>Professor Bakıda oxuduğu 16 nömrəli məktəbi ziyarət etmişdir |
| **2009** | Elektrik mühəndisliyi sahəsində "Benjamin Franklin" medalı ilə təltif olunmuşdur. |
| | Noyabr ayında Çex Respublikasının Praqa şəhərində "Qeyri-səlis Sistemlərin Tətbiqinə dair" ICAFS-2010"-ın Doqquzuncu Beynəlxalq Konfransı keçirilmişdir. Konfrans Qeyri-səlis Sistemlər Birliyinin (IFSA) sponsorluğu və "Zadə irsi və süni intellekt" Assosiasiyası, Azərbaycan Dövlət Neft Akademiyası, Ostrava Universiteti (Çexiya), Zigen Universiteti (Almaniya), "Berkeley İnitiative on Soft Computing" təşəbbüs qrupu, ACE Mərkəzi, Texas Universiteti (San Antonio, ABŞ), Corciya Dövlət Universiteti (Atlanta, ABŞ), Kanadanın Alberta və Toronto Universitetləri, TOBB-İqtisadi və Texnoloji Universiteti (Türkiyə) təşkilatçılığı ilə keçirilmişdir. |
| **2010** | 4 fevralda Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamı ilə "Dostluq" ordeni ilə təltif edilmişdir; |
| **2011** | Alimin 90 illik yubileyi silsilə tədbirlərlə qeyd edilmişdir;<br><br>Martın 18-20-də ABŞ-ın Texas ştatının El-Paso şəhərində L.Zadənin elmi yaradıcılığına həsr |

| | |
|---|---|
| **2011** | olunmuş möhtəşəm konfrans (North American Fuzzy İnformation Processing Society, 2011) keçirilmişdir. Burada Azərbaycan Respublikası RİTN tərəfindən hazırlanmış və L.Zadənin həyat və yaradıcılığına həsr olunmuş qısa-metrajlı videoçarx nümayiş etdirilmiş, həmçinin Azərbaycan Respublikasında çap olunan impakt faktorlu “Applied and Computational Mathematics” elmi jurnalının xüsusi buraxılışı və L.Zadənin yubileyi münasibətilə tərtib olunmuş təqvim iştirakçılara təqdim edilmişdir;<br><br>23-26 mayda ABŞ-ın Koliforniya Ştatının San-Fransisko şəhərində alimin 90 illik yubileyinə həsr olunmuş I Soft Computing üzrə Ümumdünya konfransı keçirilmişdir;<br><br>Soft Computing inkişafı fondu üçün Trust Fondunun medalı ilə təltif edilmişdir;<br><br>Avqust ayında İEEE “İntellektual Sistemlər” jurnalının A/İntellektual Sistemlər üçün Şöhrət Zalı (A/İntelligent Systems Hall of Fame) siyahısına daxil edilmişdir;<br><br>Konstruktor və texnoloji elmlər cəmiyyətinin “Sürətlə inkişaf edən elm və telandırıcı görünüş” üçün transdissiplinar təltifi və medalı ilə mükafatlandırılmışdır;<br><br>Noyabr ayında “Google Scholar”a əsasən alimin əsərlərinə 88,7 min istinad edilmiş, bunlardan 26 mini “İnformation and Control” jurnalında dərc olunmuş qeyri-səlis çoxluqlar haqqında ilk məqaləsinə olmuşdur. |
| **2013** | BBVA Fondu tərəfindən İnformasiya - Kommunikasiya Texnologiyaları kateqoriyasın-da Lütfi Zadə 400 min avro dəyərində mükafata layiq görülmüşdür;<br><br>18 oktyabrda alim Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi münasibətilə təbrik məktubu ünvanlamışdır. |
| **2014** | Lütfi Zadə adına Beynəlxalq Elmlər Akademiyası yaradılmışdır (Qurumun prezidenti akademik Asif Hacıyevdir). |

| | |
|---|---|
| **2015** | 26 dekabrda alim Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə doğum günü münasibətilə təbrik məktubu ünvanlamışdır;<br><br>AMEA İnformasiya Texnologiyaları İnstitutunun "İnformasiya texnologiyaları problemləri" və "İnformasiya cəmiyyəti problemləri" jurnallarının fəxri baş redaktoru seçilmişdir. |
| **2016** | Lütfi Zadənin nəzəriyyəsi əsasında yapon alimləri tərəfindən ilk dəfə olaraq süni intellektə malik Alter adlı robot hazırlanmış və Tokiodakı Beynəlxalq Elm Muzeyində sərgilənmişdir;<br><br>7 sentyabrda Azərbaycan Milli Elmlər Akademiyasının qərarı ilə Lütfi Zadənin təltif olunduğu Nizami Gəncəvi adına Qızıl Medal Azərbaycanın Los-Ancelesdəki baş konsulu Nəsimi Ağayev tərəfindən dünya şöhrətli alimə təqdim olunmuşdur. Təqdimetmə mərasimi Berklidə Azərbaycan Respublikası baş konsulluğu ilə birgə təşkil olunmuşdur;<br><br>27 dekabrda Lütfi Zadə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə yeni il təbriklərini ünvanlamışdır;<br><br>Fuad Qurbanovun "Adiloğlu" nəşriyyatında "Lütfi Zadə - 95" kitabı nəşr olunmuşdur. |
| **2017** | 10 martda Lütfi Zadə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevaya Azərbaycanın Birinci vitse-prezidenti təyin olunmağı münasibətilə təbrik məktubu ünvanlamışdır;<br><br>16 mayda Lütfi Zadə Azərbaycan Respublikasının vitse-prezidenti Mehriban Əliyevaya Azərbaycanda IV İslam Həmrəyliyi Oyunları keçirilməsi münasibətilə təbrik məktubu ünvanlamışdır;<br><br>Azərbycan Texniki Universitetinin professoru Şahnaz Şahbazovanın Lütfi Zadənin 95 illiyinə həsr olunmuş "Fuzzy logic and its applications" kitabı nəşr olunmuşdur.<br><br>21 may tarixinə qədər "Google Scholar"a əsasən Lütfi Zadənin məqalələrinə inanılmaz dərəcədə çox – 160644 istinad olunmuşdur. Onun təkcə 1965-ci ildə yazdığı məşhur "Qeyri-səlis |

| | |
|---|---|
| | çoxluqlar" məqaləsinə 60250, 13-dən artıq məqaləsinə isə 1500-dən çox istinad olunmuşdur; |
| **2017** | "Qızıl ördək" mükafatına layiq görülmüşdür;<br><br>6 sentyabrda ABŞ-da 96 yaşında vəfat etmişdir;<br><br>29 sentyabrda "Google Scholar"a görə alimin "Qeyri-səlis çoxluqlar" elmi işinə 71 mindən çox istinad edilmiş və elmi informasiya tarixində ən çox istinad edilən məqalələrdən biri olmuşdur;<br><br>L.Zadənin nəşi öz vəsiyyətinə uyğun olaraq, Azərbaycana gətirilib və Fəxri Xiyabanda dəfn edilmişdir;<br><br>29 sentyabrda Prezident İlham Əliyev dünya şöhrətli azərbaycanlı alim Lütfi Zadə ilə vida mərasimində iştirak etmişdir;<br><br>Oktyabrda "Scopus" məlumat bazasında alimin 1950-1956-cı illərdə nəşr olunmuş 20 əsərinə istinad edən 482 akademik məqalə və 1957-ciildən bu günə qədər nəşr olunmuş 179 əsərinə istinad edən 53708 akademik məqalə göstərmişdir ki, bunlardan 36165-i 1965-ci ildə nəşr olunmuş qeyri-səlis çoxluqlar haqqında məqaləyə aiddir. |
| **2018** | 9 fevralda Berkli Universitetinin Elektrik mühəndisliyi və kompüter elmləri fakültəsinin maliyyə dəstəyi, Azərbaycan Texniki Universitetinin professoru Şahnaz Şahbazovanın təşkilatçılığı ilə ABŞ-ın Berkli Kaliforniya Universitetində alimin anadan olmasının 97-ci ildönümünə həsr edilmiş "Qeyri-səlis məntiq və qeyrisəlis çoxluqlar" mövzusunda simpozium keçirilmişdir;<br><br>13 apreldə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında Lütfi Zadənin xatirəsinə həsr olunmuş, İsveç yazıçısı Fridrix Dürrematın "Dəlixanada qətl" pyesi əsasında eyniadlı tamaşaya ictimai baxış keçirilmişdir;<br><br>30 mayda alimin elmi irsinə həsr olunmuş "soft computing" üzrə yeddinci beynəlxalq elmi konfrans öz işinə başlamışdır; |

| | |
|---|---|
| | Professor Rafiq Əliyevin Lütfi Zadə ilə birlikdə yazdığı "Fuzzy logic theory and applications" (Qeyri-səlis məntiq-nəzəriyyə və tətbiqetmələr) kitabı dünyanın ən nüfuzlu elmi nəşriyyatı olan "World Scientific"də nəşr olunmuşdur;<br><br>9 iyulda Bakı Şəhər İcra Hakimiyyətinin 376 nömrəli sərəncamına əsasən Telnov küçəsinin adı dəyişdirilərək Lütfi Zadə küçəsi adlandırılmışdır.<br><br>Avqust ayında xalq rəssamı Ömər Eldarov tərəfindən alimin qəbirüstü abidəsi hazırlanmışdır;<br><br>Sentyabrda AMEA İnformasiya Texnologiyaları İnstitutunun kollektivi alimin qəbirüstü abidəsini ziyarət etmişdir; |
| **2019** | ADA Universitetində keçirilən “Akademik Mükəmməllik Günü”ndə Universitetin rektoru Hafiz Paşayevin təşəbbüsü ilə əlaçı tələbələr üçün Lütfi Zadə adına təqaüd təsis edilmişdir;<br><br>23 oktyabrda ADA Universitetində “İnformasiya və Kommunikasiya Texnologiyalarının tətbiqi üzrə 13-cü İEEE Beynəlxalq Konfransı” (AİST 2019) keçirilmişdir. Tədbirdə çıxış edənADA Universitetinin rektoru, səfir Hafiz Paşayev görkəmli alim Lütfi Zadənin elmi irsinə həsrolunan konfransın İKT-nin beynəlxalq tətbiqi sahəsinə töhfə verəcəyini bildirmişdir;<br><br>Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) rektoru, prof. Mustafa Babanlının “Fuzzy-logic based material selection and synthesis” kitabı dünyanın ən mötəbər “World Scientific” Beynəlxalq Elmi nəşriyyatı tərəfindən nəşr olunmuşdur. Kitaba ilk xeyir-duanı Lütfi Zadə vermiş və kitabda ilk dəfə olaraq alimin əsasını qoyduğu Qeyri-səlis məntiqin materialşünaslığa tətbiqi məsələləri öz əksini tapmışdır. |
| **2020** | 23 sentyabrda AMEA Fəlsəfə və Sosiologiya İnstitutunda “Fəlsəfə, süni intellekt və Lütfi Zadənin qeyri-səlis məntiq konsepsiyası” mövzusunda onlayn respublika elmi konfransı keçirilmişdir. |

**2021**

25 yanvarda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görkəmli elm xadimi Lütfi Zadənin 100 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalamışdır.

Moskvada Rusiya EA İdarəetmə Problemləri İnstitutu, Moskva Milli Tədqiqat Univers Ali İqtisadiyyat Məktəbinin "Qərarların seçilməsi və beynəlxalq təhlili" Mərkəzinin birgə təşkilatçılığı ilə "Ekspert qiymətləndirmələri və verilənlərin analizi" mövzusunda keçirilən onlayn seminar professor Lütfi Zadənin yubileyi və onun irsinin öyrənilməsinə həsr olunmuşdur;

2 fevral-5 fevralda "Lütfi Zadə Texnologiya Mərkəzi", "Paşa Bank" və ADA Universitetinin tərəfdaşlığı ilə alimin 100 illik yubileyinə həsr edilmiş "Tətbiqi elm həftəsi"nin açılışı olmuşdur. Həftə çərçivəsində "Elmin tətbiqini necə sürətləndirmək" və "Ekosistemi necə inkişaf etdirmək?" kimi mövzularda canlı və onlayn formatda müzakirələr aparılmış, "Lütfi Zadə irsi və Azərbaycan mütərəqqi fikri" adlı rəsm sərgisi keçirilmişdir;

3 fevralda AMEA İdarəetmə Sistemləri İnstitutunun (İSİ) Gənc alim və mütəxəssislər Şurasının (GAMS) təşkilatçılığı ilə 2 fevral - Gənclər günündə dünya şöhrətli alimin anadan olmasının 100 illiyinə həsr olunmuş onlayn seminar keçirilmişdir;

4 fevralda Lotfi Zadeh Technology Center yaradılmışdır. Layihə Xəzər dənizi regionunda texnoloji və innovativ ekosistemin yaradılmasına həsr edilmişdir. Məqsəd doğru insanları bir məkanda birləşdirərək innovasiyanın inkişafına təkan vermək, Azərbaycanın startup ekosisteminə öz töhfəsini verərək texnoloji ideyaların qlobal ekosistemə inteqrasiyasına şərait yaratmaq olmuşdur;

**2021**

AMEA-nın Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsinə (FRTEB) daxil olan institutların rəhbərliyi dünya şöhrətli alimin 100 illik yubileyi münasibətilə onun qəbirüstü abidəsini ziyarət etmişdir;

Siyəzən və Şabran rayonlarında Heydər Əliyev

| | |
|---|---|
| | Mərkəzi, Siyəzən rayon Təhsil Şöbəsinin təşkilatçılığı ilə alimin 100 illik yubileyinə həsr olunmuş video-konfrans keçirilmişdir;<br><br>Bakı Dövlər Universitetində alimin 100 illiyinə həsr olunmuş elmi-regional konfrans keçirilmişdir;<br><br>Mütəxəssislər Şurasının təşkilatçılığı ilə dünya şöhrətli alim Lütfi Zadənin anadan olmasının 100 illiyinə həsr edilən onlayn seminar keçirilmişdir;<br><br>M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası tərəfindən görkəmli elm xadiminin doğum günü münasibətilə “Lütfi Zadə-100” adlı virtual sərgi hazırlanmışdır;<br><br>5 fevralda Azıərbaycan Diasporla iş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə ZOOM formatında alimin 100 illiyinə həsr olunmuş beynəlxalq elmi konfrans keçirilmişdir;<br><br>AMEA-nın müxbir üzvü Rafiq Əliyev, ADNSU-nun müəllimi, texnika elmləri doktoru Oleq Hüseynovun moderatorluğu və Diaspora üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Lütfi Zadənin anadan olmasının 100 illiyinə həsr edilmiş konfrans keçirilmişdir;<br><br>Bakı Dövlət Universitetinin Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunda nəşr olunan "Applied and Computational Mathematics" beynəlxalq jurnalının Lütfi Zadənin 100 illiyinə həsr olunmuş “Fuzzy logic and its application to modeling epidemies: Coronavirus and beyond” mövzusunda xüsusi buraxılışı çap edilmişdir; |
| **2021** | ADA Universitetində rektor Hafiz Paşayevin rəhbərliyi ilə Lütfi Zadənin 100 illik yubileyinə həsr olunmuş “Elm və Texnologiyada yeni trendlər” mövzusunda onlayn mühazirə keçirilmişdir;<br><br>Bakı Dövlət Universitetində (BDU) dünya şöhrətli alim Lütfi Zadənin 100 illik yubleyinə həsr edilmiş regional elmi konfrans keçirilmişdir;<br><br>11 fevralda Mingəçevir Dövlət Universitetində (MDU) dünya şöhrətli alim, Azərbaycan Milli |

| | |
|---|---|
| **2021** | Elmlər Akademiyasının fəxri üzvü, professor Lütfi Zadənin anadan olmasının 100 illiyinə həsr edilmiş elmi-nəzəri seminar keçirilmişdir; Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə "Aziz" Azərbaycan-İsrail Beynəlxalq Assosia-siyasının nəzdindəki Azərbaycan Mədəniyyət Mərkəzi alimin 100 illiyinə həsr olunmuş "Müasir dövrdə qeyri-səlis məntiqin dəyəri" mövzusunda videokonfrans təşkil etmişdir;<br><br>Naxçıvan Dövlət Universitetində görkəmli alimin 100 illik yubileyi qeyd edilmişdir;<br><br>Mart ayında Azərbaycan Respublikası Mədə-niyyət Nazirliyinin təşəbbüsü ilə "Dünya kulturologiyası və Lütfi Zadə" mövzusunda onlayn seminar keçirilmişdir;<br><br>AMEA Fəlsəfə və Sosiologiya İnstitutunda "Elm günü"nə və Lütfi Zadənin 100 illik yubileyinə həsr edilmiş "Qeyri-səlis məntiq nəzəriyyəsinin fəlsəfi-qnosoloji əsasları və tətbiqi kriteriyaları" adlı beynəlxalq onlayn konfrans keçirilmişdir;<br><br>17 martda AMEA Fəlsəfə və Sosiologiya İnstitutunda "Elm günü"nə və Lütfi Zadənin 100 illik yubileyinə həsr edilmiş "Qeyri-səlis məntiq nəzəriyyəsinin fəlsəfi-qnesoloji əsasları və tətbiqi riteriyaları" adlı beynəlxalq onlayn konfrans keçirilmişdir;<br><br>12 aprel tarixində ADA Universitetinin və Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) tərəfindən "Lütfi Zadənin dünya iqtisadiyyatı və elminin inkişafına töhfələr" adlı konfrans keçirilmişdir;<br><br>13 apreldə İqtisadi İslahatların Təhlili və Kom-munikasiya (İİTKM) ADA Universiteti ilə birlikdə alimin anadan olmasının 100 illiyinə həsr edilmiş "Lütfi Zadənin dünya iqtisadiyyatı və elminin inkişafına töhfələri" mövzusunda konfrans keçirmişdir;<br><br>28 apreldə Lütfi Zadənin xatirəsinə həsr olunmuş Azərbaycan Respublikasının Prezi-denti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Elektron Hökumətin İnkişafı Mərkəzinin təşkilatçılığı ilə |

| | |
|---|---|
| **2021** | rəqəmsal formatda keçirilən "Rəqəmsal idarəetmədə süni intellekt" (AIFORDIGIGOV) mövzusunda beynəlxalq konfrans keçirilmişdir;<br><br>M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının əməkdaşları tərəfindən "Qeyri-səlis məntiq nəzəriyyəsinin banisi–Lütfi Zadə" adlı elektron məlumat bazası hazırlanmışdır;<br><br>30 iyunda görkəmli elm xadimi Lütfi Zadənin xatirəsinin əbədiləşdirilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabineti qərar imzalamışdır;<br><br>Nazirlər kabinetinin 188 nömrəli qərarına əsasən Nəsimi rayonunda yerləşən Texniki humanitar liseyə Lütfi Zadənin adı verilmişdir;<br><br>Nazirlər kabinetinin 188 nömrəli qərarına əsasən Bakı Şəhər İcra Hakimiyyəti Lütfi Zadənin yaşadığı binaya (Əlövsət Quliyev küçəsi, 79) xatirə lövhəsinin vurulmasını təmin etmişdir;<br><br>6 avqustda Lütfi Zadənin anadan olmasının 100 illiyi ilə əlaqədar, AMEA-nın N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanasında (ŞAR) onlayn şəkildə mini-konfrans keçirilmişdir;<br><br>23-24 avqust tarixlərində Türkiyənin Antalya şəhərində professor Lütfi Zadənin 100 illik xatirəsinə həsr olunan 2021 XI beynəlxalq konfransı keçirilmişdir.<br><br>16 sentyabrda Azii e- Kitab Evində Lütfi Zadəyə həsr olunmuş ənənəvi kitab sərgisi təşkil olunmuşdur. |
| **2022** | 3-5 fevral tarixlərində AMEA-nın İdarəetmə Sistemləri İnstitutu, ABŞ-in Berkeley Kaliforniya Universiteti və Azərbaycan Texniki Universitetinin təşkilatçılığı ilə alimin anadan olmasının 100 illiyi və elmi irsinə həsr edilən VIII Umumdünya yumşaq hesablamalar konfransı keçirilmişdir;<br><br>M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası tərəfindən "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından "Lütfu Zadə. Biblioqrafiya" kitabı nəşr olunmuşdur. |